**Azərbaycan.** - 2023.- 15 iyun. - № 126. - S. 17.

# ƏBƏDİYAŞARLIQ RƏMZİ

**Elmira Süleymanova,**
Ağsaqqallar Şurasının sədr müavini, professor

**1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya, ikinci dəfə siyasi hakimiyyətə qayıtdı. Dünya Bankının hesabatlarına görə, o zaman Azərbaycanda yoxsulluğun səviyyəsi 85 faizə çatmışdı, ölkəmizi dağıntılar, siyasi, iqtisadi, sosial, bir sözlə, hərtərəfli böhran bürümüşdü, xaos və özbaşınalıq hökm sürürdü. Heydər Əliyev hakimiyyətə belə bir çətin vəziyyətdə qayıtdı və ilk günlərdən hərtərəfli islahatların özülünü qoydu.**

Ümummilli Liderin insanların yaşamaq hüququnun təmin edilməsi yönündə verdiyi olduqca mühüm əhəmiyyətli qərarlarından biri 12 may 1994-cü il tarixdə Azərbaycanla Ermənistan arasında imzalanmış atəşkəsin əldə olunması ilə bağlı razılaşmadır. Bu qətiyyətli addım ölkəmizin sülh və əmin-amanlıq istəyinin, eyni zamanda ölkə vətəndaşlarının ən müqəddəs olan yaşamaq hüququnun təmin edilməsinin bir təzahürü idi. Bu atəşkəs həm də dövlətimizin, iqtisadiyyatımızın, büdcəmizin, ordumuzun güclənməsi məqsədilə zaman udmaq baxımından böyük strateji əhəmiyyəti olan bir nailiyyət idi.

Heydər Əliyev böyük və məharətli strateq olaraq, uzaq perspektivi görməklə bu qənaətə gəldi ki, hərtərəfli, sistemli köklü islahatlara ehtiyac var. O, yaranmış vəziyyətdən çıxmaq üçün qarşıda duran məqsədləri və onlara aparan yolları aydın görürdü və müəyyən etdi ki, ən əvvəl iqtisadiyyatımızı inkişaf etdirməliyik, güclü ordu yaratmalıyıq. Ulu Öndər dərk edirdi ki, yalnız qüdrətli Azərbaycan yaranmış gərgin geosiyasi vəziyyətdə 200 ildən çox davam edən erməni təcavüzünün qarşısını ala bilər. Heydər Əliyevin fenomenliyi ondan ibarət idi ki, o, uzağı və dərini aydın görürdü, məqsədləri dəqiq müəyyən edirdi və həmin məqsədlərə aparan ən səmərəli yolları tapa bilirdi.

Ulu Öndər “Əsrin müqaviləsi” adlandırılmış neft kontraktının bağlanmasını yaranmış dərin böhrandan çıxış yolu hesab edirdi və bunun əhəmiyyətini qabaqcadan aydın görürdü. 1994-cü ildə gerçəkləşdirilmiş layihənin nəinki ölkədaxili problemlərin həllində, həmçinin beynəlxalq aləmdə tarixi əhəmiyyətə malik olmasına bu gün hər kəs şahidlik edir. Lakin o vaxt Heydər Əliyevin bu taleyüklü təşəbbüsünü tənqid edənlər, şübhə altına alanlar var idi. Zaman isə bu tənqidlərin tamamilə əsassız olduğunu, həmin neft müqaviləsinin dövlətimizi tamamilə yeni mərhələyə, inkişafa və tərəqqiyə doğru apardığını, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə səbəb olduğunu göstərdi.

Yeri gəlmişkən, 1999-cu ildə tarixi İstanbul Sammiti baş tutdu. O zaman qeyri-hökumət təşkilatının rəhbəri olsam da, mən də həmin sammitə dəvət edilmişdim. Burada ilk dəfə olaraq Heydər Əliyev bildirdi ki, Azərbaycan öz neftinin xarici bazarlara çıxarılması üçün təklif edilən və bəzi dövlətlərin marağında olan variantı deyil, məhz Bakı-Tbilisi-Ceyhan marşrutunu seçir. Bu xəbər coşqu ilə qarşılandı.

Ulu Öndər türk dünyasına böyük dəstək verərək onun inkişafı üçün önəmli tədbirlər keçirirdi. Neft müqaviləsinə imza atmaqla böyük İpək yolunun bərpasını və ölkəmizin inkişafını təmin edərək, dünyanın diqqətinin Azərbaycana yönəlməsinə nail oldu, Avropa İttifaqı və müxtəlif ölkələrin liderləri ilə dialoq və uzunmüddətli strateji əməkdaşlıq planları quruldu.

Mənə bir neçə beynəlxalq konfransda Heydər Əliyevi yaxından müşahidə etmək xoşbəxtliyi nəsib olmuşdur. Onlardan biri 1994-cü ildə Qahirədə BMT-nin keçirdiyi Əhali və İnkişaf üzrə qlobal konfrans, digəri 1999-cu ildə keçirilən İstanbul Sammiti və başqaları idi. Adıçəkilən hər iki tədbirdə Heydər Əliyev ən çox başqa ölkələrin prezidentləri tərəfindən ziyarət edilən dövlət başçısı olmuşdur. Yüksək nitq mədəniyyəti, natiqlik istedadı, müxtəlif mövzularda çıxışlarında perspektiv problemli məsələlər qaldırması və

işıqlandırması, həlli yollarını dərindən təhlil etməsi və tövsiyələr verməsi onun dünya səviyyəli siyasi və dövlət xadimi olduğunu hər dəfə sübut edirdi. Bütün bu tədbirlərdə biz Heydər Əliyevin müdrikliyinin, yüksək nüfuzunun dönə-dönə şahidi olurduq.

Heydər Əliyev eqosentrik insan deyildi, o şəxsi maraqları, mənfəəti, şöhrəti, sağlamlığını düşünməz, öz qayğısına qalmazdı. Onun üçün həyatında ən böyük prioritet, qarşısında qoyduğu məqsəd vətəni Azərbaycanın müstəqilliyi və azadlığı, xalqına xidmət etmək, daha çox ehtiyacı olan insanlara dəstək vermək idi.

Ulu Öndər geniş intellekt sahibi, alim təfəkkürlü, elmin, alimlərin qayğısına qalan bir insan idi. Elmi fəaliyyətimdən ayrılmadan akademiyanın Kimya Elmləri bölməsinin elmi katibi vəzifəsində çalışdığım dövrdə müşahidə etdiyim bir maraqlı əhvalat yadıma düşür.

Azərbaycan elminə böyük diqqət və maraq göstərən Heydər Əliyev akademiyanın illik iclaslarında iştirak edirdi. İclasdan əvvəl Prezidiumun binasının foyesində sərgilənmiş kitablarla tanış olur, onların müəllifləri - alimlərlə görüşür, söhbət edirdi. İclasın sonunadək müxtəlif bölmələrin rəhbərlərinin, akademik katiblərin illik hesabatlarını heç bir qeydlər aparmadan diqqətlə dinləyir, sonda isə öz çıxışında onlara ixtisasına uyğun professional səviyyədə çox maraqlı suallarını, tövsiyələrini verirdi. İclasların birində akademiyanın prezidenti alimlərin ona fəxri akademik adını vermək təkliflərini bildirdikdə isə, hörmətə görə öz təşəkkürünü bildirdi. Elmin böyük rolunu, hər bir xalq həm də öz elm xadimlərinin nailiyyətləri ilə dünyada tanındığını vurğuladı. Heydər Əliyev "hər bir alim də öz işinə məsuliyyətlə yanaşmalı, nəzəriyyəni təcrübə ilə birləşdirməklə ölkəsinə, xalqına fayda verməyə çalışmalıdır" deyirdi.

Ümummilli Liderimizin ən mühüm prioritetlərindən biri də ölkədə insan hüquq və azadlıqlarının təmin olunması idi. Müstəqilliyini əldə etdikdən sonra qətiyyətlə demokratik, hüquqi dövlət quruculuğu yolunu seçmiş Azərbaycan Respublikası insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etdi və bu niyyətlə bir sıra hüquqi islahatlar həyata keçirildi.

12 noyabr 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Milli Konstitusiyası qəbul olundu və dövlətimizin bu əsas qanununun II-ci bölməsinin III-cü fəsli bütövlükdə özündə insan və vətəndaş hüquq və azadlıqlarını ehtiva edirdi. Heydər Əliyev demokratik, hüquqi, dünyəvi bir dövlətin əsasını qoyaraq, Azərbaycanda dövlətçilik ənənələrini bərpa etdi. Bu, bilavasitə özünün iştirakı, tövsiyələri əsasında hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasında, eləcə də çoxsaylı məqalələrində, ölkəmizdə və xaricdə keçirilmiş möhtəşəm beynəlxalq konfranslardakı, sammitlərdəki çıxışlarında, həmçinin həyata keçirdiyi fəaliyyətində bariz şəkildə görünür.

Heydər Əliyev sözün əsl mənasında dövlətimizin bu ilk Konstitusiyasının memarı idi. Bu sənədin hər maddəsi, hər cümləsi, hər sözü onun gərgin əməyi və geniş xalq müzakirəsi prosesində irəli sürülmüş hər bir təklifin təhlilinin məhsulu olmuşdur.

Geniş diapazonlu elmi təfəkkürə malik olan bu dahi insanın fəaliyyəti hər bir sahədə olduğu kimi, insan hüquqlarının tam dərk edilməsi və təmin olunması sahəsində də zamanın tələblərinə və inkişaf perspektivlərinə uyğun siyasətin, strategiyaların, inkişaf konsepsiyalarının, cari dövrün prioritetlərinin həlli üçün dövlət proqramlarının işlənib hazırlanmasına yönəlmişdi.

Bu zaman istər siyasi, vətəndaş, istərsə də iqtisadi, sosial, mədəni hüquqlar - bunların hamısı onun diqqət mərkəzində olmuşdur. Ölkə əhalisinin milli, etnik, dini mənsubiyyətinə, cinsinə, dilinə görə hər hansı bir ayrı-seçkiliyə yol verilmədən heç bir qrupu onun diqqətindən yayınmamışdır. İlk Konstitusiyamızda insan hüquq və azadlıqlarına belə geniş yer verilməsi Prezident Heydər Əliyevin həmin dövrdə rəhbərlik etdiyi Azərbaycan dövlətinin demokratik ənənələrə, insan hüquqları ideyalarına dönmədən əməl etdiyindən xəbər verirdi.

Görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə və dəyərli tövsiyələri nəzərə alınmaqla hazırlanıb ərsəyə gəlmiş, hüquq və azadlıqlarımız təsbit olunmuş Konstitusiyanın qəbul olunması xalqımızın müstəqilliyini əldə etdikdən sonra ən böyük nailiyyəti kimi dəyərləndirilir. Respublikamızın bir sıra beynəlxalq

konvensiyalara qoşulması, Avropa Şurasına üzv qəbul olunması ilə əlaqədar sonralar Konstitusiyamızda əlavələr və müəyyən dəyişikliklər də edilmişdir.

24 avqust 2002-ci il tarixdə keçirilmiş ümumxalq referendumu yolu ilə Əsas Qanuna edilən dəyişiklik və əlavələrdə insan hüquqları və azadlıqları baxımından son nailiyyətlər də öz əksini tapmışdır. O cümlədən Konstitusiyanın üç maddəsində ombudsmanın seçilməsi, onun Konstitusiya Məhkəməsinə sorğu göndərərək müraciət etməsi ilə bağlı yeni müddəalar əlavə edilmişdir.

Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi və sonrakı illərdə uzaqgörənliklə hüquqi islahatların həyata keçirilməsi, qarşılıqlı fəaliyyətin təmin edilməsi məqsədilə bir sıra tədbirlər görülmüş, müvafiq qanunvericilik aktları qəbul olunmuşdur. Bunlardan biri “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 22 fevral 1998-ci il tarixli fərman idi ki, bu, ilk dəfə ombudsman sözünə rast gəldiyimiz rəsmi sənəddir. Burada “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” layihəsinin və insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması, qaçqınların, məcburi köçkünlərin, əlilliyi olan insanların, müharibə iştirakçılarının, aztəminatlı ailələrin iqtisadi və sosial hüquqlarının daha səmərəli təmin edilməsi, habelə insan hüquqları üzrə elmi tədqiqatların aparılması ilə əlaqədər normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi üçün tədbirlər planının qəbul edilməsi müəyyən olunmuşdur.

Bu sənədin məntiqi davamı kimi 1998-ci il 18 iyun tarixli sərəncamla təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” həmin fərmandan irəli gələn vəzifələri nəzərə alaraq, ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə qəbul olunmuşdur. Bu proqramda ölkəmizdə ilk dəfə olaraq İnsan hüquqları üzrə müvəkkil təsisatının yaradılması, həmçinin respublikamızda insan hüquqları haqqında beynəlxalq sazişlərə, konvensiyalara qoşulması, qəbul olunmuş normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, beynəlxalq institutlarla və mərkəzlərlə birlikdə tədqiqatların aparılması, xüsusi təhsil proqramları üzrə mütəxəssislərin hazırlanması, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

1993-cü ildə respublikamızda ölüm cəzasının tətbiqi üzərində veto qoyuldu və Azərbaycan Respublikasının Milli Məclisinin 10 fevral 1998-ci il tarixli müvafiq qanunu ilə ölüm cəzası ləğv olunaraq, ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv olunması dünyada böyük əks-səda doğurdu. Ulu Öndər Heydər Əliyevin bu humanist və cəsarətli addımı respublikamızın Avropa hüquq məkanına inteqrasiyasına təkan verdi. MDB məkanında bu qərarı qəbul edən ilk dövlət məhz Azərbaycan Respublikası idi.

Ölüm cəzasının aradan qaldırılmasına qarşı cəmiyyətdə etiraz edənlər də olmuşdu ki, kimisə qətlə yetirən insanı nə üçün ölümlə cəzalandırmaq olmaz? Ulu Öndər ona xas olan müdrikliyi, məntiqi və humanist düşüncəsi ilə belə cavab vermişdi ki, insan insanı öldürdüyü halda törətdiyi cinayətə görə qanuna uyğun cəzalandırılır. “Hüquqi-demokratik dövlət vətəndaşını qorumalıdır, onu öldürə bilməz” deyərək təkidlə bu qərarı qanun səviyyəsinə qaldırmışdı.

Təbiətcə ədalətli, mərhəmətli, xeyirxah insan olan müdrik rəhbərimizin humanist addımları təkcə bu deyilənlərlə məhdudlaşmır. Müstəqil dövlətimizdə ilk əfv fərmanı da Prezident Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə imzalanmışdır. Həmin sənədlə Azərbaycan Respublikasında əfvetmə institutunun bərpa olunması Heydər Əliyevin müstəsna xidmətlərindəndir. Sonrakı illərdə silsilə əfv sərəncamları qəbul olunmuşdur. Ümumilikdə, 1995-2003-cü illər ərzində Prezident Heydər Əliyev 32 əfv sərəncamı imzalamışdır. Onun təşəbbüsü ilə 1996-cı ildən başlayaraq 7 amnistiya aktı qəbul edilmiş, minlərlə məhbusa tətbiq olunmuşdur. İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin ildönümü ilə əlaqədar olaraq 6 may 2003-cü il tarixdə qəbul edilmiş amnistiya aktı isə 14 min məhbusa şamil edilmişdir.

Heydər Əliyevin insanpərvərliyə yönəlmiş ideyaları zamanın sınağından keçmiş və indiyədək Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Artıq müstəqillik dövründə 12 amnistiya aktı qəbul olunmuş, 69 əfv sərəncamı imzalanmış və həyata keçirilmişdir. Nəticədə həbsdən azad edilmiş insanlar ailələrinə və cəmiyyətə qovuşmuşlar.

İnsan hüquqlarının müdafiəsinə dair ilk dövlət proqramında insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması da nəzərdə tutulurdu. 2001-ci il yanvarın 25-də Azərbaycan Avropa Şurasına üzv seçildi. Dövlətin öhdəliklərindən biri də ombudsman haqqında bir il ərzində qanunun qəbul olunması idi. Heydər Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatların məntiqi davamı olaraq, həmin il dekabrın 25-də Avropa İnsan Hüquqları və Əsas Azadlıqları Konvensiyası ratifikasiya olundu. 2001-ci ilin dekabrın 28-də isə Milli Məclis tərəfindən “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya statuslu qanun qəbul edildi. Bununla da zamanın tələbi kimi gündəmə çıxan, zərurətdən doğan, ölkəmizdə analoqu olmayan ilk müvəkkil təsisatının təşəkkül tapması və fəaliyyəti üçün hüquqi baza yaradıldı. Bu qanunla müvəkkilin dəyişilməzliyi, toxunulmazlığı və heç bir dövlət qurumunun, vəzifəli şəxsin onun fəaliyyətinə müdaxilə etməsinin yolverilməzliyi ilə müstəqilliyi təmin olundu.

Çevik, dinamik, yüksək sürətlə məqsədyönlü fəaliyyətinin təsdiqi olaraq, 2 iyul 2002-ci ildə qanuna uyğun olaraq ölkə Prezidenti Heydər Əliyevin tövsiyə etdiyi üç namizəddən biri Milli Məclis tərəfindən səsvermə ilə Azərbaycan Respublikasının ilk ombudsmanı seçildi. Bir çox ölkədə Ombudsman institutunun yaradılması illərlə çəkməsinə rəğmən, ölkəmizdə bu təsisat qısa bir vaxtda quruldu. Sürətli və ritmik fəaliyyətinin təşkili, beynəlxalq təcrübədən düzgün və səmərəli istifadə olunması təsisatın qısa müddət ərzində formalaşması üçün zəmin yaratdı.

Azərbaycan Respublikasının ilk insan hüquqları üzrə müvəkkili olmaq mənə nəsib oldu və 17 il ərzində (2002-2019) bu vəzifənin səlahiyyətlərini icra etdim. Həmin vəzifəyə seçilməzdən əvvəl Ulu Öndər Heydər Əliyev məni qəbul edərək heç vaxt unutmayacağam tövsiyələrini verdi. O, ombudsman vəzifəsinin çox ağır bir iş olduğunu, ölkəmizdə analoqu və ənənəsi olmadığını, fəaliyyətimi ombudsmanın andına sadiq qalaraq quracağıma və öhdəsindən gələcəyimə inandığını bildirdi. Mən bu tövsiyələri fəaliyyətim dövründə həyata keçirməyə müvəffəq olduğuma və Ulu Öndərin etibarını doğrultduğuma görə fəxr edirəm. Məhz Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi ilə və tapşırıqlarına uyğun olaraq Azərbaycanda ilk müstəqil, şəffaf, qərəzsiz, ədalətli Ombudsman təsisatı yarandı. Bu təsisat qısa müddətdə ölkəmizdə nüfuz qazandı, dünyada tanındı və Avropa standartları səviyyəsinə ucaldı.

Beləliklə, müstəqilliyimizin törəməsi olan, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə yaranmış, Prezident İlham Əliyevin dəstəyi ilə inkişaf etdirilmiş insan hüquqlarının müdafiəsi üzrə yeni mexanizm olan Ombudsman təsisatı dövlətimizin müstəqilliyinin qorunmasında müstəsna rol oynayır.

Heydər Əliyevin siyasətini fərqləndirən cəhətlərdən biri də onun hər zaman inkişaf strategiyalarının mərkəzində insan amilinin olmasıdır. Odur ki, ölkənin iqtisadi potensialının artması mütəmadi olaraq insanların rifahının yüksəlməsi, yeni iş yerlərinin açılması, məşğulluğun, əməkhaqqı, pensiyalar, sosial müavinətlərin tədricən artması ilə müşahidə olunmuşdur.

Heydər Əliyevin rəhbərliyi zamanı əhalinin elə bir qrupu olmamışdır ki, onun diqqətindən yayınmış olsun. Qadınlarla bağlı məsələlər, o cümlədən onların idarəetmədə, dövlət qurumlarında qərar qəbul etmə səviyyəsində təmsil olunması məsələləri ölkə başçısının hər zaman diqqət mərkəzində idi. 1998-ci ildə özülünü Heydər Əliyev qoymuş qadın siyasəti çərçivəsində Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı, daha sonra zamanın tələbinə uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə çevrildi. Heydər Əliyev qadın liderliyini önə çəkərək qadınların dövlət, ictimai-siyasi və dövlət işlərində, həmçinin beynəlxalq konfranslar, simpoziumlar, IV Ümumdünya Pekin qadınlar konfransında fəal iştirak etməsinə imkan və şərait yaratdı.

Bu nəhəng konfransda, habelə qeyri-hökumət təşkilatlarının forumunda böyük dövlət olan Rusiya nümayəndəliyi 6 nəfərdən ibarət olduğu halda, Azərbaycanı müxtəlif sahələr üzrə təmsil edən 72 qadından ibarət nümayəndələr fəal iştirak etmişlər və indiyədək qüvvədə olan Pekin platformasında öz tövsiyələrinin yer tapmasına nail olmuşlar.

Heydər Əliyevə laqeydlik hissi yad idi, hər bir işə, hər bir kəsə ürək yanğısı, səmimiyyətlə, məsuliyyətlə yanaşırdı, xalqına bağlı insan idi. O, "uşaqlar bizim gələcəyimizdir" deyə hər bir uşağın qayğısına qalmağı vacib məsələ kimi qarşıya qoymuşdu. Heydər Əliyevin tövsiyəsi və dəstəyi ilə ilk dəfə olaraq iki uşaq 2001-ci ildə BMT-nin ilk və yeganə Uşaq Haqları üzrə Baş Assambleyasının xüsusi sessiyasında iştirak etmək üçün dövlət nümayəndə heyəti tərkibinə salındı. Bu uşaqların öz səsləri ilə erməni təcavüzündən, müharibədən çəkdikləri əzabları dünya ictimaiyyətinə çatdırması, vətənlərini layiqincə təmsil etməsi, beynəlxalq təşkilatların, BMT-nin, UNICEF-in böyük marağına, ölkəmizə xüsusi diqqətinə səbəb oldu.

Ölkənin inkişafında gənclərin rolunu vurğulayaraq yüksək dəyərləndirən, onların fəal vətəndaşlıq və vətənpərvərlik ruhunda yetişməsi üzrə strategiyanın yaradıcısı olan və öz iştirakı ilə keçirilmiş möhtəşəm forumlara dəstək verən Ulu Öndər "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" demişdir və bu problemi dövlət qarşısında prioritet səviyyəsinə qaldırmışdır.

Heydər Əliyevin göstərişi ilə xalqımızın qızıl fondu adlandırdığı ahılların, müharibə iştirakçılarının, şəhid ailələrinin, əlilliyi olan insanların və əhalinin başqa həssas qruplarına aid insanların sosial problemlərinin həllinə və hüquqlarının təmin olunmasına yönəlmiş ünvanlı proqramlar üzrə müxtəlif tədbirlər həyata keçirilmişdir. Eyni zamanda xalqımızın, dövlətimizin qarşısında xüsusi xidmətləri olan insanlara, o cümlədən görkəmli elm, təhsil, mədəniyyət, incəsənət xadimlərinə onları şərəfləndirən yüksək adlar, mükafatlar verilmiş, ömürlük fərdi Prezident təqaüdü təyin olunmuşdur.

Azərbaycanın geosiyasi vəziyyətini, uzunmüddətli erməni təcavüzünü nəzərə alaraq, ordu quruculuğuna, hərbi qulluqçuların peşəkarlığının artırılmasına, sosial vəziyyətinin yaxşılaşdırılmasına, bu istiqamətdə görülən tədbirlərə Heydər Əliyev böyük önəm verirdi.

Qaçqınların və məcburi köçkünlərin problemli məsələlərinə hər zaman xüsusi diqqət yetirirdi. Torpaqlarımızın zəbt olunması, minlərlə soydaşımızın öz yurdlarından didərgin düşməsi bu problemlərin həll olunması zərurətini önə çəkirdi.

Heydər Əliyevi fərqləndirən güclü azərbaycançılıq məfkurəsi, vətəninə, xalqına olan məhəbbəti idi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam", "Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir" sözlərilə Ulu Öndər öz hisslərini aşkar ifadə edirdi və bu, sadəcə söz deyildi, onun həyat kredosunu bəyan edirdi.

Lakin millətini nə qədər çox sevsə də, Ulu Öndər ifrat millətçilikdən bir o qədər uzaq idi və hesab edirdi ki, "dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Bu amili Ümummilli Liderimiz Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı dövlət kimi inkişafının əsas prinsipi olaraq qəbul edib, müasir, multikultural və tolerant dövlətimizin özülünü qoydu.

Heydər Əliyev xalqımızın dili, milli və dini mənsubiyyəti, mənəvi dəyərlərini, adət-ənənələrini, ailə dəyərlərini yüksək dəyərləndirirdi və onlara çox hörmətlə, həssaslıqla yanaşırdı.

Erməni işğalçılarının zəbt etdikləri torpaqlarımızın azad olunması, uzun illər ağır məcburi köçkün həyatı sürmüş soydaşlarımızın öz ocaqlarına, yurduna qayıtması Heydər Əliyevi ən çox narahat edən məsələlərdən idi. O zaman həllolunmaz kimi görünən bu ağır problemləri atasının bir çox fərqli yüksək liderlik xüsusiyyətlərini özündə cəmləmiş layiqli varisi İlham Əliyev həll etməyə nail oldu və həm Ulu Öndərə, həm də xalqa bəyan etdi: "Mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim".

Heydər Əliyevin güclü genetik kodu ilə varisinə ötürdüyü özünəməxsus istedadlar çələngini mükəmməl təhsili, yorulmaz zəhməti ilə daha da inkişaf etdirmiş, zamanın çağırışlarına cavab verən, tələblərinə uyğun

olan məqsədləri, həm də bu məqsədlərə nail olmaq üçün ən səmərəli yolları seçməyi, müdrik xalqımızı, rəşadətli ordumuzu öz ətrafında yumruq kimi vahid bir qüvvəyə birləşdirməyi bacarmış Prezident, Müzəffər Ali Baş Komandan, istedadlı sərkərdə və diplomat İlham Əliyev dünya hərb tarixinə yeni şərəfli səhifələr yazmış, 44 günlük Vətən müharibəsində rəhbərliyi ilə böyük zəfərə nail olmuşdur.

Heydər Əliyev və onun varisi İlham Əliyev vətəni tarixin burulğanlarından, ən ağır vəziyyətdən çıxarmaqla xilaskar oldular, xalqımıza iki qurtuluş, iki dirçəliş yaşatdılar və onu intibah yoluna çıxardılar.

Prezident İlham Əliyevin rəhbərliyi ilə irəliləyən dövlətimizdə siyasi sabitliyin, güclü iqtisadiyyatın və Milli Ordunun yaranması və getdikcə güclənməsi, Azərbaycanın dünyada sülhə, inkişafa və əməkdaşlığa yönəlmiş təşəbbüsləri, beynəlxalq aləmdə nüfuzunun artması həm də ölkəmizdə insanların məmnunluğunun, rifahının yüksəlməsi, hüquq və azadlıqlarının etibarlı təmin olunması ilə yanaşı, yeni uğurlarla nəticələndi.

Böyük zəfər nəticəsində 30 il işğal altında qalan torpaqlarımız azad olundu, minlərlə keçmiş məcburi köçkün soydaşlarımızın öz torpaqlarına qayıtması problemi reallığa çevrildi. Rəşadətli Azərbaycan Ordusu düşmən ordusunu darmadağın etməklə Ermənistanı kapitulyasiyaya məcbur etdi. Zəfər dövlətimizin hərtərəfli inkişafı üçün yeni üfüqlər açdı. Bu möhtəşəm tarixi qələbə xalqımızın birliyini, qüdrətini, vətənpərvərliyini, ruh yüksəkliyini və torpaqlarımızı qorumaq əzmini daha da gücləndirdi.

Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Qarabağda və Şərqi Zəngəzurda bütün azad olunmuş torpaqlarımızda sürətlə ərazilərin minalardan təmizlənməsi, kompleks şəkildə nəhəng bərpa və quruculuq işləri həyata keçirilir. İnsanlarımızın uzun illər həsrətində olduğu doğma yurdlarına qayıtmasına başlanılıb.

Dövlət başçısı iqtisadi inkişaf strategiyaları ilə özünü bir daha fenomenal bir lider kimi təsdiqlədi, xalqın, millətin birliyinə nail oldu, insanları bir saf əqidəyə, azərbaycançılığa, vətənpərvərliyə, quruculuğa gətirib çıxartdı. İlham Əliyevin sayəsində Azərbaycan dünya ölkələri arasında söz sahibi oldu. Onun 20 illik hakimiyyəti dövründə Azərbaycan zəngin inkişaf yolu keçib, siyasi, iqtisadi, sosial, mədəniyyət, idman və digər sahələrdə ciddi nailiyyətlər əldə edib. Ölkəmizin beynəlxalq aləmdə nüfuzu gündən-günə daha da güclənməkdədir.

İlham Əliyev erməni quldurlarının dinc əhalini, uşaqları qırğına məruz qoyması, insanlara, təbiətə, ekologiyaya, torpaqlarımıza, tarixi, dini və mədəni abidələrimizə, coğrafi toponimlərə qarşı bəşər tarixində görünməmiş genosid törətməsi faktlarını, qaçqın və məcburi köçkünlərimizin düşdüyü və illərlə yaşadıqları acınacaqlı vəziyyəti, ölkəmizdə bununla bağlı yaranmış problemləri, bir sözlə, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə düzgün və qərəzsiz, cəsarətlə çatdırdı.

Azad olunmuş torpaqlarımıza müxtəlif ölkələrdən gələn minlərlə insan erməni barbarlarının törətdikləri vəhşiliklərdən, dağıntılardan qəzəblənir, onları lənətləyir, səlahiyyətli beynəlxalq qurumlardan bu cinayətkarların cəzalandırılmasının zəruriliyini dünyaya çatdırır, eyni zamanda həmin ərazilərdə sürətlə aparılan hərtərəfli bərpa-quruculuq işlərindən heyrətlə məlumat yayır.